# Dilin daima Allahı zikr etməklə yaş qalsın

Abdullah ibn Busrdan (Allah ondan razı olsun) rəvayət edilir ki, bir kişi belə dedi: “Ey Allahın Rəsulu, İslamdakı ibadətlər mənim üçün çox oldu, ona görə də mənə möhkəm yapışacağım bir əməl söylə. Peyğəmbər (sallallahu aleyhi və səlləm) ona dedi: "Dilin daima Allahı zikr etməklə yaş qalsın".

[Səhih] [Ət-Tirmizi, İbnu Məcə və Əhməd rəvayət etdi]

Bir kişi Peyğəmbərə (sallallahu aleyhi və səlləm) nafilə ibadətlərinin çoxluğundan və bədəninin zəyifliyinə görə də aciz qalaraq onları yerinə yetirə bilməməsindən şikayət etdi. Sonra kişi, Peyğəmbərdən (sallallahu aleyhi və səlləm) ona asan, lakin böyük savab gətirən bir əməl göstərməsini xahiş etdi ki, ona bağlı qalıb, ondan yapışsın. Beləliklə, Peyğəmbər (sallallahu aleyhi və səlləm) ona, dilinin Uca Allahı hər zaman və hər halda təsbih və həmd edərək, istiğfar, dua və s. bu kimi zikrlər etməklə təravətli və hərəkətli qalmasını tövsiyə etdi.



النجاة الخيرية
ALNAJAT CHARITY
لجنة الدعوة الإلكترونية
EDC E-Da'wah Committee